**RESENZİYA**

**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.167-173
**MJ №** 218

# "Sağlamlıq və sənətkarlıq ocağı Şuşa" kitabı haqqında dəyərləndirmə

**Lalə Əliquliyeva***




**Kitabın adı:**
Sağlamlıq və sənətkarlıq ocağı ŞUŞA
**Müəllif:** Zəhra Muradova
**Kitabın dili:** Azərbaycan dili
**Nəşr ili:** 2022
**Səhifəsi:** 72 səhifə
**Nəşriyyat:** "Orxan" Nəşriyyatı
**Ölkə:** Bakı, Azərbaycan
**ISBN** 978-9952-37-922-8

## 1.Giriş

"2023 cü il sentyabrın 15 də Qətər dövlətin in paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır."

---

* Filalogiya üzrə fəlsəfə doktoru, dosent,
BAAU tərcümə kafedrasının, AİÌ Dillər və ictimai fənlər kafedrasının, ADU Xarici dillər kafedrasının dosenti; Bakı, Azərbaycan
E-mail: aliquliyeva@bk.ru
https://orcid.org/0000-0002-4312-8982
**Məqaləyə istinad:** Əliquliyeva, L. [2024] "Sağlamlıq və sənətkarlıq ocağı Şuşa" əsəri haqqında dəyərləndirmə. *"Metafizika" jurnalı, 7(2),* səh. 167-173.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.167-173

**Resenziyanın tarixçəsi:**
*Resenziya redaksiyaya daxil olmuşdur: 27.11.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 14.01.2024*
*Çapa qəbul edilmişdir: 29.04.2024*

Hörmətli prezidentimiz İlham Əliyevin bu qərarı əsasında bir sıra tədbirlər planının hazırlanıb həyata keçirlməsi üçün start verildi. Bu tədbirlər sırasında möhtəşəm görünüşə malik heyranedici, möcüzəli Şuşanın insan ruhuna və sağlamlığına məlhəm təbiətinin bütün dünyada o çümlədən islam dünyasında tanıdılması ön plana çəkilib. Beynəlxalq tədbirlərə, böyük mədəniyyət layihələrinə ev sahibliyi edən qədim şəhərimiz dünya miqyasında sülh, birlik və humanizm carçısıdır. 2022-ci il Azərbaycanda Şuşa ili elan edilməsi, daha sonra Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı tərəfindən (TÜRKSOY) Şuşanın 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı elanı ilə artıq bu sahə üzrə bir sıra layihələr uğurla həyata keçirilmişdir. Bu layihəlrdən biri də dəyərli alimizim, görkəmli pedaqoq, professor Zəhra Muradovanın qarabağ və Şuşa ilə bağlı yazdığı əsərlərdir.

**2.Zəhra Muradovanın yaradıcılığı və əsərləri**

Muradova Zəhra Bilal qızı 1949-cu il mart ayının 31-də Naxçıvan şəhərində anadan olub. 1966-cı ildə Naxçıvan şəhər C.Məmədquluzadə adına orta məktəbi qızıl medalla bitirib, elə həmin ildə bir imtahandan “əla” qiymət almaqla Bakı Dövlət Universitetinin “Kimya” fakultəsinə daxil olub.

1969-cu ildə ailə həyatı qurmuş, 1971-ci ildə isə universiteti bitirmiş və 1974-cü ildən Bakı şəhəri 176 nömrəli orta məktəbdə kimya müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. İşlədiyi müddət ərzində elmi-pedaqoji fəaliyyəti ilə hər zaman öncüllərdən biri olubdur. Pedaqoji fəaliyyət dövründə Oktyabr rayonu (indiki Yasamal rayonu) üzrə Kimya-fənni metodbirləşmənin sədri, Azərbaycan məktəbi jurnalının redaksiya heyyətinin, Respublika və SSRİ Mendeliyev Cəmiyyətinin, həmçinin Beynəlxalq Qadınlar Cəmiyyətinin üzvü olubdur. Maarif Nazirliyi, Rayon Partiya təşkilatı, Rayon Maarif şöbəsi tərəfindən dəfələrlə fəxri fərmanlar almışdır.

Həmin illərdə Oktyabr rayon (indiki Yasamal) partiya komitəsi nəzdində yaradılan, ictimai əsaslarla fəaliyyət göstərən Pedaqoji Universitetin prorektoru, sonra isə rektoru vəzifəsində çalışmışdır. Həmçinin müəyyən illərdə Respublika Kimya olmpiadalarında təşkil olunan komissiyaların tərkibində olmuşdur. SSRİ müəllimlər qurultayının nümayəndəsi olmaqla yanaşı SSRİ Maarif Nazirliyi tərəfindən fəxri-fərmanla təltif olunmuşdur. 1984-cü ildə “Metodist müəllim”, 1991-ci ildə “Ali kateqoriyalı kimya müəllimi” adına layiq görülmüşdür. 1985-1988-ci illərdə “Məktəb kimya kabinetlərinə baxış” müsabiqəsinin Azərbaycan və SSRİ üzrə qalibi olmuşdur.

1985-ci ildən başlayaraq butun müəllimlik fəaliyyəti dövru dərsləri “Açıq dərs” olaraq keçirilmişdir. 1987-ci ildə qabaqcıl müəllim kimi iş üsulu rayon, şəhər və respublika səviyyəsində elmi-praktik konfranslarda yayılmışdır.

1995-ci ildə Bakı şəhər Nərimanov rayonundakı Bağça-Məktəb-Lisey kompleksində kimya müəllimi və direktor müavini vəzifəsində çalışmış, 1998-2002-ci ilə qədər isə Azərbaycan Respublikası Təhsil Nazirliyində Nəzarət İdarəsinin ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar müəssisələr üzrə şöbə müdiri vəzifəsinə irəli çəkilmişdir. Təhsil Nazirliyində işlədiyi müddət ərzində yüksək pedaqoji fəaliyyətinə görə ona əmək kitbçasına yazılmaq şərti ilə təşəkkürnamə verilmişdir. 1997-ci ildə “Kimyanın tədrisində məişət kimyası materiallarından istifadə təcrübəsi” mövzusunda dissertasiya işini müdafiə edərək “Elmlər namizədi” alimlik dərəcəsini almışdır.

2002 ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında bütün nazirliklərdə olduğu kimi Təhsil Nazirliyində də nəzarət idarəsi ləğv olunur. Bu səbəbdən də o, Azərbaycan Dövlət İqtisad Universitetində müəllimlik fəaliyyətini davam etdirərək 2010-cu ilə qədər orda metodist və baş müəllim vəzifəsində çalışmışdır.

2002-2004-cü illərdə isə həmin universitetdə “Beynəlxalq İqtisadi Münasibətlər” fakültəsini bitirərək ikinci təhsil almışdır.

2010-cu ildən Azərbaycan Respublikası Təhsil İnstitutunda elmi fəaliyyətə başlamışdır və hal-hazırda həmin institutun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır.

2015-ci ildən Azərbaycan Respublikası “Əsilzadələr məclisi”nə üzv seçilmişdir.

2017-ci ildə “Azərbaycanda kimyanın tədrisi metodikasının inkişafı” mövzusunda doktorluq işini tamamlayaraq müdafiə etmiş və “Pedaqogika üzrə elmlər doktoru” elmi dərəcəsini almışdır.

2019-cu ildən Yazıçılar Birliyinə üzv seçilmişdir. Həmin ildən Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının (AAK-nın 18.11.2019-cu il tarixli F-102 nömrəli əmri əsasında) üzvüdür. 25.02.2020-ci ildə “Qızıl Qələm” Media mükafatı laureatı diplomuna layiq görülmüşdür. 08.03.2020-ci ildə “Xan qızı Natəvan” ali media mükafatına layiq görülmüşdür.

44 günlük “Vətən müharibəsi” ərəfəsində Ali Baş Komandanın müdrik siyasəti, müzəffər Ordumuzun döyüş fəaliyyəti ilə əlaqədar olaraq dövrü mətbuatda silsilə yazılarla çıxış etmiş, vətənpərvərliyinə və əsgərlərimizə edilən mənəvi dayağa, maddi yardıma görə 22.01.2022-ci il tarixində “Böyük Zəfər” xatirə medalına layiq görülmüşdür. Bundan əlavə o, 2022-ci ildə I dərəcəli Hacı Zeynəlabdin Tağıyev fəxri medalına, 2023-cü il “Tərəqqi” medalı və “Təhsil fədaisi” ordeninə layiq görülmüşdür.

Zəhra xanım həmçinin memarlıq və dizayn, xüsusilə muzey və mədəniyyət evləri layihələrini həyata keçirən M-Studio MMC-nin elmi məsləhətçisidir.

Azərbaycan Tarixi və Mədəniyyətinin dünya ölkələrində təbliği istiqamətində aparılan tədbirlər proqramına uyğun olaraq, Gürcüstanda Azərbaycanın görkəmli mütəffəkirlərinin muzeyləri üçün ekspozisiya planının tərtibatında və arxiv materiallarının əldə olunmasında yaxından iştirak etmişdir, həmçinin M.F.Axundzadə, N.Nərimanovun həyat və yaradıcılıqlarına həsr olnan kitabların redaktoru olmuşdur.

Bununla bağlı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi adından və SOCAR-ın Gürcüstan Nümayəndəliyi tərəfindən Təhsil İnstitutuna iki təşəkkürnamə göndərilmişdir (02.03.2018). Zəhra Muradova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplom (05.04.2019), Odlar Yurdu Universiteti tərəfindən fəxri diplom (2019), “Azərbaycan Valideyn-Müəllim Assosiyası” İctimai Birliyi tərəfindən fəxri fərmanla (01.11.2017) təltif olunmuşdur.

O, həmçinin10 kitab, 3 monoqrafiya, 4 metodik vəsait və 200-ə yaxın elmi məqalələrin, tezislərin müəllifidir.

Müəllifin son dövrdə yazdığı kitablar milli sərvətimiz olan Şuşanın tarixi, mədəniyyəti, sağlamlıq və sənətkarlıq mərkəzi baxımından qiymətli məlumatlarla zəngindir.

Şuşa, Hər daşı-qayası tarix (Bakı-2022). Müəllifin oxuculara təqdim etdiyi bu kitab Şuşa şəhər- qalasının tikilməsindən, Şuşa şəhərindən və orada yetişən görkəmli elm, sənət və dövlət adamlarından, ictimai xadimlərdən bəhs edir. Müəllifin qarşısına qoyduğu əsas məqsəd Azərbaycan və dünya miqyasında tanınmış şuşalıları bir daha geniş oxucu kütləsinə tanıtdırmaq və yaddaşımızı daha da möhkəmlətməkdir.

Şuşadan Qoriyə gedən yol (Bakı-2022). Kitabda Zaqafkaziya (Qori) Müəllimlər Seminariyasının fəaliyyəti barədə, orada Azərbaycan maarifinin, təhsilinin inkişafında xidmətləri olan şuşalı məzunlar haqqında ətraflı məlumat verilmişdir.

Sağlamlıq və sənətkarlıq ocağı Şuşa (Bakı-2022). Müəllifin oxuculara təqdim etdiyi bu kitabda Şuşanın sağlam iqlim şəraiti, onun yaranma səbəbləri, həmçinin şuşa sənətkarlığı və onun inkişafına təsir göstərən amillər haqqında ətraflı məlumat verilmişdir.

Heydər Əliyev və Qarabağ (Bakı-2023). Bu kitab Azərbaycanın Ümumilli Lideri, xalqımızın böyük oğlu Heydər Əliyev hakimiyyətinin birinci və ikinci hissəsində Qarabağ məsələsi ilə baölı fəaliyyətindən bəhs edir. Mövzu ilə əlaqədar maraqlı faktlar və məlumatlar öz əksini tapmışdır.

**3.Əsərin məzmunu**

Yuxarıda qeyd olunan kitablardan “Sağlamlıq və sənətkarlıq ocağı Şuşa” adlı kitabın üzərində xüsusi olaraq durmaq istərdim. Kitab 2022 ci ildə “Orxan” nəşriyyatında çap olunub. Əsər giriş, iki fəsil və ədəbiyyat siyahısından ibarətdir.

Girişdə zəngin tarixi və mədəniyyəti ilə tanınan Şuşanın əsrarəngiz gözəlliyə malik təbiəti haqqında ümumi məlumat verilmiş və bu gözəlliyə xüsusi rəng qatan flora və faunası, göz oxşayan seyrangahlı mənzərəsi, zəngin ağacları ilə sıldırım qayaları yaşıl örpəyə bürüyən məşhur olan meşələrindən, göz yaş ıkimi tərtəmiz bulaqlarından söz açılır. Şuşanın heyrətamiz gözəlliyə malik təbiəti, iqlimi insan sağlamlığında nə qədər böyük rol oynayırsa, təbii sərvətləri də sənətkarlığın inkişafında o qədər mühüm əhəmiyyətə malikdir. Kitabda tarix boyu şərəfli yaradıcılıq yolu keçmiş, milli mədəniyyətimizin tanınmış nümayəndılırindən olan şüşalı sənətkarların adları qeyd olunmuşdur.

**4.Kitabın fəsilləri haqqında**

1.“İqlimi sağlamlıq rəhni olan olan diyar” adlı ilk fəsildə ekoloji tarazlığın saxlanılmasında mühüm rol oynayan meşələr havanın yüksək səviyyədə olmasının əsas amillərindən biri kimi qeyd olunur. Burada ağaclar fotosintez prosesi ilə yanaşı, havanın təmizlənməsində filtr rolunu oynayır, havanı zəhərli bakteriyalardan təmizləyən fitonsid maddələri ifraz edirlər. Adı çəkilmiş fəsildə Şuşa dağlarının bəzəyi olan şam, qovaq, palıd, ardıc, sidr ağaclarının mikrobları və xəstəlik törədən çöpləri məhv etmə xüsusiyyətləri qeyd olunur. Şuşada havanın təmiz olmasının mühüm bir səbəbi də məhz meşələrdə palıd, ardıc və sidr ağaclarının daha geniş yayılmasıdır. Iynəyarpaqlı ağacların iynələrinin tərkibində olan maddələr bir çox xəstəliklərin, xüsusilə Sinqa xəstəliyinin müalicəsində əhəmiyyətli təsirə malikdir. Məhz bu səbəbdən şam ağaclarını “həyat ağacları” adlandırırlar.

Şuşa zəngin təbiəti, saf, təmiz havası ilə yanaşı bulaq suyunun və mineral sularının tərkibinə görə daha çox diqqəti cəlb edir. Bunlar bioloji aktiv, tərkibində kifayət qədər makro və mikro elementlərlə zəngin mineral maddələrdən ibarət sağlamlığın rəhni olan sulardır. Əsərdə tərkibi insan orqanizmi üçün gərəkli olan kimyəvi maddələrlə zəngin olan “Turşsu”, “Şırlan”, “Dəmir bulaq”, “Qotur bulaq”, “İsa bulagı”, “Şor bulaq”, “Mamayı bulağı” kimi bulaqların tərkibi və onların müalicəvi əhəmiyyəti haqqında geniş məlumat verilir.

Şuşanın havası, suyu şəfalı olduğu kimi, torpağı da insan orqanizmi üçün gərəkli olan mineral maddələrlə zəngindir. Bu makro elementlərdən kalsium,azot, fosfor, dəmir, maqnezium,sink, natrium, kalium, xlor,brom,

yod, flüor, mis bu torpaqlarda bitən ağacların, kolların, meyvələrin, bitkilərin, mineral maddələrin tərkibində vardır. Fəsildə bir sıra xəstəliklərin sağalmasında yararlı olan nadır dərman bitkilərinin adları sadalanmış və onlardan bir neçə xəstəliyin müalicəsi üçün hazırlanan dərmanalr və onalrdan istifadə qaydaları oxuculzarın diqqətinə çatdırılmışdır. Şuşada mövcud olan dərman bitkilərinin zənginliyi xalq təbabətinin inkişafına və xalq təbiblərinin yetişməsinə, geniş fəaliyyət göstərməsinə zəmin yaratmışdır. Burada hazırlanan dərmanların, xalq təbiblərinin şöhrəti artıq uzaq ölkələrdə də məlum idi. Bu təbiblə\rdən bəziləri ata-babalarından öyrəndikləri biliklər əsasında işləyir, bəziləri isə tibb elmini öyrənmək üçün müxtəlif şəhərlərdə təhsil alıb ixtisaslaşmış mütəxəssis kimi öz vətənlərinə dönüb xalqa xidmət edirlər. Əsərdə onlardan bir neçəsinin fəaliyyuəti haqqında məlumat verilir.

2.“Sənətkarlığın inkişafına təsir edən amillər” bölməsində müəllif bədii yaradıcılıq növü olan sənətkarlığın Şuşada inkişafında bir neçə amilin xüsusi təsiri olduğunu müfəssəl şəkildə təsvir edir. Əsas amillərdən biri Qarabağ xanlığının sənətkarlara olan yüksək səviyyəli münasibəti ilə əlaqələndirir.Qarabağ xanlarının sənətkarlara olan münasibəti və qayğısı digər yaxın bölgələrdən daha çox tanınan, şöhrətli sənətkarların və onlarla əməkdaşlıq edənlərin də Şuşaya köçüb, burada məskunlaşmasına səbəb olurdu. Nəticədə Şuşada misilsiz sənətkarlıq nümunələri, gözəl memarlıq abidələri yarandı.

Sənətkarlığın inkişfına təsir edən digər səbələr isə bu şəhərin gözəl təbiəti və bioiqlimi ilə əlqə\ləndirilir.Bioiqlim mühiti hər bir insanda xoş əhval-ruhiyyə oyadır, sevinc, gümrahlıq yaradır, əmək məhsuldarlığını yüksəldir. Bu torpaqda yetişən bitkilər, coşub-çağlayan bulaqların tərkibindəki mineral maddələr sənətkarların yetişməsinə əhəmiyyətli təsir göstərir.

Şuşada mövcud olan yeraltı və yerüstü təbii sərvətlər sənətkarlığın əsl xammal mənbəyi idi. Məsələn, toxuculuq sənətinin əsas xammal mənbəyi təbii və kimyəvi liflərdir. Təbii liflərə yun, kətan, pambıq və ipək aiddir. Kimyəvi lif kimi isə süni və sintetik liflərdən istifadə olunur. Toxuculuq sənəti xalçaçılıq və şərbaflıq (parça toxunması) sənətini özündə birləşdirir. Şərbaflıqda yun, ipək, pambıq və kətan liflərindən hazırlanan müxtəlif növ parçalar toxunurdu. Bu liflərin xammalları Qarabağın aran zonalarında yetişdirilirdi. Xüsusən ipək liflərindən hazırlanan ipək parçalar öz keyfiyyəti və göz oxşayan görününşü ilə dünya bazarında çox məşhur idi.

Toxuculuq sahəsində özünəməxsusluğu ilə fərqlənən xalçaçılıq Şuşada geniş vüsət tapmış və yerli xalqın milli mədəniyyət tarixində xüsusi yer tutmuşdur. Şuşanın əsrarəngiz xalçalarından “Nəlbəkigül”, “Zərməxmər”, “Bağçada güllər”, “Bəhmənli xalçası”, “Xantirmə”, “Xanlıq”,

Malıbəyli”xalçalrının diqqəti cəlb edən özəllikləri qeyd olunmuşdur. Burada həmçinin, liflərin əyrilməsi və boyanması üçün zəruri sayılan həllaclıq və boyaçılıq sənətinin inkişafından da söz aşılır. Boyaqçılıq sənəti nəqqaşlıq sənətinin meydana gəlməsinə, geniş yayılmasına və inkişafına şərait yaradırdı. Burada nəqqaşlıqla yanaşı, rəssamlıq da təsviri incəsənətin əsas sahəsi kimi inkişaf edirdi. Rəssamlar adətən bədii yaradıcılıq üçün mövzunu həyatdan, təbiətdən alırdılar.

Şuşada həmçinin keçəçilik də inkişaf edirdi və bununla bağlı kifayət qədər keçə məmulatları istehsal olunurdu.Keçi tükündən möhkəm sicim, kəndir, ələk, xəlbir, kisə və digər əşyalar da hazırlanırdı.

Şüşa dağlarının, qayalarının təbii sərvəti olan daşlar da ən gözəl xammaldır. Bu daşlar memarlıq, daşyonma, daşişləmə sənətlərinin yaranmasına və inkişafına səbəb olub. Belə daşlar hesabına yaradılan sənət əsərləri xalqın tarixini, milli-mənəvi dəyərlərini özündə əks etdirir.

Əsərin sonunda Şuşanın milli sərvətlərindən biri olan qarabağ atları da qeyd olunr. Şuşanın gözəl təbiəti bu at cinslərinə də öz təsirini göstərmişdir. Onlar mükəmməl, sürətli, oynaq, təlimə həssas, dağ minik atlarıdır.1956-cı ildə Qarabağdan İngiltərəyə “ Zaman” adlı at hədiyyə edilmişdir. Adına ballada yazılmış bu at Qarabağ atlarının ən gözəl xüsusiyyətlərini özündə cəmləmiş idi.

Qarabağın zəngin filiz yataqlarının hesabına Şuşda metalişləmə sənəti də meydana gəlir və onun əsasını dəmirçilik, misgərlik, zərgərlik sahələri təşkil edir. Bu məmulatların üzərində nəqqaşların, rəssamların vurduğu naxışlar onların dəyərinin artmasına səbəb olurdu.

## 5.Yekun

Göründüyü kimi, bütün bu sənətkarlıq nümunələri bir-biri ilə əlaqəli şəkildə inkişaf etmiş və xalqımızın milli sərvətinə çevrilmişdir.

Müəllif əsəri yazarkən son dərəcə dəqiq faktlardan və mövzu ilə bağlı geniş ədəbiyyatdan istifadə etmişdir. Şuşanı öz gözəl məziyyətlərini açıqlayan, şərh edən bu kitab islam dünyasının mərkəzi olan ərəb şərqində də tanınması üçün ərəb dilinə tərcümə edilmişdir.